# SÖZ

2009 MÜSTƏQİL ƏDƏBİ-PUBLİSİSTİK JURNAL





"Ezop" Lənkəran teatrının səhnəsində







Dolsun gülüşləriylə qoy yaxınlar, uzaqlar,
Dünyanın hər yerində xoşbəxt olsun uşaqlar.

# AYDIN MƏMMƏDOV MƏNƏVİYYAT SAHİBİ İDİ



***İndi illərin xeyli uzaqlığında qalan ötən əsrin 88-ci ilinin fevralından başlanan hadisələri gözlərim önünə gətirəndə o illərin işıqlı simaları arasında daxili işlər naziri Aydın Məmmədovun da işıqlı siması gəlir gözlərim önünə.***

Meydanı təkcə azadlıq hərəkatının liderləri idarə etmirdilər. Milli azadlıq hərəkatının beşikdə boğulmamasının səbəbkarlarından biri daxili işlər naziri Aydın Məmmədov kimi insanın olması idi. Aydın Məmmədov Azərbaycan SSR-in daxili işlər naziriydi. Bizim meydan hərəkatımız onun üçün problem yaradırdı. Əslində o, dövlətin mənafeyi naminə bizə qarşı çıxmalıydı. Amma o, adı böyük hərflərlə yazılan Azərbaycanlı idi, ədəbiyyat adamı, mənəviyyat sahibi idi. Bu mənada Aydın Məmmədov müstəqil dövlətçiliyimizin tarixinə birinci düşən şəxslərdəndir.

Aydın Məmmədov iddialı nazirlərdən deyildi. Belə demək mümkünsə, xalqın naziriydi. Sovet dövrünün naziri, generalı olub, milli ruhdan çıxış etmək qəhrəmanlıq idi. Hər dəqiqə bizimlə idi. Hadisələrə uzaqgörənlik baxımından məsuliyyəti öz boynuna götürərdi. Həmin günlərdə milis də xalqın tərəfindəydi.

Neçə onillərdən bəri ürəyimizdə qövr edən dərdləri demək üçün bizə meydan lazım idi. Biz meydana təkcə Ermənistanın qara niyyətinə qarşı çıxmaq üçün yığışmırdıq. Millətin sinəsində düyünə dönmüş dərdlər çözələnir, imperiyanın apardığı müstəmləkəçilik, millətləri ruslaşdırıb əritmə siyasəti, Azərbaycanın parçalanması, ana dilinə münasibət, ekologiya, mədəniyyət, mənəviyyat məsələləri də müzakirəyə çıxarılır, yüzlərlə təklif səslənir, hökumət qarşısında tələblər irəli sürülürdü.

Nazir kimi xalqın mənafeyi naminə ondan asılı nə vardısa, ləyaqətlə yerinə yetirirdi. O vaxta qədər Azərbaycanda mitinq, meydana yığışmaq, meydanı dağıtmaq təcrübəsi yox idi. Azərbaycan əleyhinə sərt mövqe tutan Moskva nümayəndələri Bakıya gəlib günlərlə qalırdılar ki, qan töksünlər. Bunun ən rahat yolu meydan idi. Aydın Məmmədovun vətənpərvərliyi nəticəsində bunu həyata keçirə bilmirdilər.

Onun həm insan, həm də nazir kimi nüfuzu, mövqeyi meydanın qansız təmizlənməsinə səbəb oldu. Bu onun Azərbaycan xalqı qarşısında misilsiz xidməti idi.

Yanvar hadisələri zamanı da bizimlə idi. Rus ordusu Bakıya girəndə də, komendant saatı tətbiq ediləndə də. Proseslər eləydi ki, Moskvanın qarşısını almaq heç cür mümkün deyildi. O, Azərbaycanın güc naziriydi, respublikanın başçısı deyildi. Nazir kimi ondan asılı nə vardısa, ləyaqətlə yerinə yetirirdi. Yəni, həmin günlərdə xalqı əliyalın qoyub qaçmadı, kürsü davasına girmədi. Hadisələr onu çox sıxırdı. 20 yanvar hadisəsindən sonra istefa verən yeganə nazir oldu. Halbuki həmin günlərdə başsız qalan ölkədə tökülən qanlar üzərində hakimyyət davası gedirdi.

İstefa verməklə hansı psixoloji sarsıntılar keçirdiyini yaxşı bilirəm. Çünki mən özüm də müstəqil respublikamızın vəzifə postundan ilk istefa verən nazir olmuşam.

Sonralar da Aydın müəllimlə görüşərdik. Qarabağ müharibəsinin xalqa vurduğu yaraları ürəyində gəzdirə-gəzdirə içindən əriyirdi. Nəhayət, bu ağrılarla həyata vida etdi.

Qardaşı Sultan Məmmədovla da dostam. Lerik rayonunda I katib işləyəndə dağlar qoynunda görüşlərimiz çox olub. Bizi həm də Şəhriyar poeziyasına, bütövlükdə ədəbiyyata münasibət birləşdirir. Astarada icra hakimyyəti başçısı işləyəndə də görüşərdik.

Sonralar uzun illər Milli Məclisdə birgə işlədik. İndi də hərdən görüşüb, ötənlərə qayıdaraq dərdləşirik. Görüşlərimizin əbədi mövzularından biri də Aydın olur.

Ruhu şad olsun.

***Sabir Rüstəmxanlı,***
***Xalq şairi, millət vəkili***